CƏMİYYƏT

# “Sənan haqqında sağlığında olduğu kimi danışırıq”

## DOSTUNU XİLAS EDİB, ÖZÜ ŞƏHİD OLAN SƏNAN AXUNDOVUN HƏYAT HEKAYƏTİ

1992-ci ildə Sənanın atası Tahir Axundov da könüllülər batalyonuna yazılıb, o da həmyerliləri kimi gecə-gündüz ermənilərin işğalı səbəbindən doğma torpaqlarımızda yaranmış sərhəd məntəqələrində keşik çəkməyə gedirdi. Vətən darda idi. Hər gecə atılan top, mərmi səslərindən onsuz da Füzuli rayonunun kəndlərinin sakitliyi, firavanlığı pozulmuşdu. Ruslar, xarici qüvvələr ermənilərin köməyinə gəlirdi. Azərbaycanlıların Vətənin müdafiəsi üçün yaratdıqları batalyonların isə kənardan köməyi çox az idi. İnsanlar əlində olan yaba, balta, tüfənglə öz el-obasını qoruyurdular. Yenicə müstəqillik qazanmış bir xalqın Rusiya Ordusunun qanlı hücumlarına qarşı gücü haradan olacaqdı ki? Bütün əsrlərdə və siyasi oyunlarda hakimlərə, padşahlara, siyasətçilərə alət ola bilən erməniləri Azərbaycanın müstəqilliyini viran etmək üçün də məqsədli şəkildə Qarabağ oyununda istifadə etmişdilər. Ermənilər də belə oyunlara adətkərdə olduqlarından, oyunun bütün şərtlərinə gedirdilər. Təki oyun olsun. Erməni oyunda alət, biz isə müstəqilliyə və Vətəni qorumağa iddialı. Bəzən Tanrı da düşmənə aman verir. Amma Vətəni qoruyanlar, elindən-ocağından ayrılmaq istəməyənlər də elə bilirdilər ki, HAQQ səslərini eşidəcək.

13 yaşlı Sənan da güllə səsləri altında dərsə gedir, axşamlar evdə atasını gözləyirdi. Bəzən səhərə kimi yatmırdı. Onda Azərbaycanın yaxın-uzaq guşələrindən insanlar axın-axın vətəni düşməndən qorumaq üçün düşmənlə həmsərhəd rayonlara köməyə gəlirdilər. Vətəninin uzağı-yaxını, yadı-doğması olmur ki. Vəziyyət gündən günə gərginləşir, Füzulinin kəndləri də boşalırdı. Belə günlərin birində Sənanın atası hər iki övladını - qızını və oğlunu Bakıya bacısıgilə göndərdi. Sənan getmək istəmirdi. Rayondan ayrılana qədər boynu arxaya burulu qaldı. Cığırları, yolları, dalanları, bulaqları, biçənəkləri, dağları gözlərinə yığdı.

*(Əvvəli 23 fevral sayımızda)*



***Söhbəti Nəcibə xanım davam etdirir:***

- Çox mistik bir hadisə olmuşdu. Həmin gün Nəzrin oturduğu yerdə 16:01-də atasına mesaj yazıb ki, “ATA, SALAMAT QAL!”. Həkimlər isə saat 16:00-da Sənanın ölümünü fiksasiya ediblər. Ölüm kağızında həmin saat yazılmışdı.

Çətindir, mənim üçün çox çətindir. Deyirlər ki, şəhidlər ölmür, yaşayırlar. Göylərdə? Bəs onda biz neyləyək? Axı biz ovuna bilmirik. Hər gün özümüzü aldadırıq. Mən hər gün ölürəm. Təkcə onlar şəhid olmurlar, şəhidlər öləndə onların doğmaları da, yarları da ölürlər. Mən də bir şəhidəm. Mən əslində yox kimiyəm. Boş sözlər mənə təsəlli vermir. Tahirin uğurlarına sevinən, Nəzrinlə nəfəs alan, Nəzrinin ətrini ciyərlərinə çəkən Sənan indi yoxdur. Bilirsiniz Nəzrini necə sevirdi? Alırdı qucağına, gedib yatağında uzanırdı, ətrini ürəyinə çəkirdi, bağrına basıb qoxlayırdı, deyirdi ki, Nəzrinin ətrindən doymur. Nəzrin indi də qəbul etmir atasının yoxluğunu. O bir dəfə atasının adına açılan yas məclislərinə girmədi, bir dəfə də olsun onun qəbrini ziyarət etmədi. İndi Nəzrini Sənan kimi bağrına basan, ətrini onun kimi ürəyinə çəkəni yoxdur. Mən Sənan ola bilmirəm. Elə qadınlar var ki, hərbçinin kim olduğunun ağırlığını anlaya bilmir. Hərbçi ilə ailə qurur, bir ildən sonra bu həyat, gözləmələr xoşuna gəlmir. Ayrılıb gedir. Əsl hərbçi qadınları üçün həyat yoldaşları komandir, özləri isə əsgər olmalıdır. Biz Sənanla bir toy məclisində tanış olduq. Bir il nişanlı qaldıq. O, Ali Hərbi Məktəbi bitirən ili toyumuz oldu. İyun ayında evləndik, bir aydan sonra da onun təyinatını Qazax-Ağstafa zonasına verdilər. Getdik Ağstafada ev tutduq. Çətin idi. Mən heç vaxt rayonda yaşamamışdım. Ancaq Sənana görə dözürdüm. 2002-ci ildə oğlumuz dünyaya gəldi. Ağstafadan Bakıya 3 saata gəlib çatmışdı. Necə sevinirdi. Uşağa atasının adını verdik. Sonra 2005-ci ildə Nəzrin gəldi dünyaya. 2007-ci ildə Sənanı bacarıqlı və alman dilini bilən zabit kimi Almaniya Federativ Respublikasında Silahlı Qüvvələrinin Hərbi Akademiyasında təhsil almağa göndərdilər. Almaniyada xeyli dostlar qazandıq. 2009-cu ildə təhsilini başa vurdu. Qayıtdıq Vətənə. O gündən sonra Almaiyada olan dostlarımızı Bakıya dəvət edirdik. Bizim evimiz Şəhidlər Xiyabanının yaxınlığındadır. Bizə gələn qonaqların şəhərimizlə tanışlığı Şəhidlər Xiyabanından başlayırdı. Bakının küçələrində, meydanlarında baş vermiş hadisələri, Sovet Ordusunun qarşısına çıxan 20 yanvar şəhidlərini göstərirdi qonaqlara. Onlara orada yatan şəhidlərimizi göstərib deyirdi ki, onun üçün Vətən, Bakı buradan başlayır.

- Baş Kəşfiyyat İdarəsində çalışdığı dövrdə peşəkarlıq nümayiş etdirərək Qarabağ ərazilərində yerləşən işğalçıların hərbi obyektlərinin kartoqrafik sxemlərini işləmişdi. Baş Kəşfiyyat İdarəsində kapitan rütbəsindən polkovnik-leytenant rütbəsinə qədər yüksəlmişdi.

2009-cu ildə isə ikinci ixtisas kimi Bakı Dövlət Universitetinin Hüquq fakültəsini bitirdi. Arzuları böyük idi. 2012-2015-ci illərdə Almaniyaxda keçdiyi müxtəlif kəşfiyyat təlimlərində və görüşlərində iştirak etdi. Hər iki dövlətin hərbi əməkdaşlıq sahəsində əlaqələrinə nə qədər əməli töhfələr vermişdi. 2012-ci ildə Türkiyədə hərbi təlim keçdi. Oradan da uğurla qayıtdı.

Bir dəfə Almaniyadan yenə hansısa tədbirdə iştirak etmək üçün nazirliyə dəvət gəlmişdi. Kimisə başqa mütəxəssisin adını iştirak üçün göndərmişdilər. Tədbirin başlanmasına bir neçə gün qalmış, Almaniyadan tədbirin təşkilatçıları sorğu göndərib demişdilər ki, bizim orada yetişdirdiyimiz mütəxəsis var - Sənan Axundov. Bu sahə üzrə onu göndərin. Yenə məcbur olub Sənanı göndərdilər. Xoşbəxt idik. Nə biləydik ki, qədərimizdə bu da var imiş. Birlikdə yaşadığımız 15 ilin hər günündə onun Vətən həsrətini hiss etdim. Elə bil ki, o düzənləri, o cığırları əli ilə qoyub gəlmişdi. Doğma yurdunu, uşaqlığının keçdiyi yerləri elə gözəl təsvir edirdi ki, bəlkə də özümüzdə olsaydı, onun danışdığı nişanələrlə mən də gedib tapardım. Sənanın ata babası Davud Axundov müharibə veteranı olub. Həm də sonralar ömrünün ahıl vaxtına kimi Azərbaycanın müxtəlif rayonlarında milis rəisi işləyib.

Sənan babasına oxşayırdı. Hər cəhəti ilə. Babası da Bakıda rəhmətə getdi. Aparıb Beyləqanda dəfn etdilər.

Heç bilmirəm xatirələrimi harada bitirim. Apreldə Ordumuz düşmənin təxribatının qarşısımnı alanda o, çox narahat idi. Əslində üzünü az-az görürdük. Həmin vaxtlar idi. Bir gün gördüm ki, əlində bir qırmızı parça gəldi. Adətən bu parçaya ölən zabitin ulduzlarını, orden və medallarını düzürlər. Gətirib öz medallarını düzdü oraya. Dedi ki, bundan sonra medalları bu parçanın üzərində qalsın. Dəyməyin onlara. Aprel döyüşlərinə ara veriləndən sonra o, bir neçə dəfə rəhbərliyə raport yazıb, ön cəbhəyə getmək istədiyini inad etdi. Onu kəşfiyyat rəisi təyin edirlər. Axşam vaxtı yol çantasını hazırladım, qapıdan onu yola salanda çox həyəcanlandım. Gözlərim doldu. Heç vaxt belə olmamışdı. Mənim həyəcanımı görüb ayaq saxladı, mənimlə üzbə-üz oturdu. “Bax, Nəcibə, sən narahatsan, mən narahat deyiləm. Bilirəm ki, sən evi də idarə edəcəksən, uşaqları da böyüdəcəksən. Sən güclü qadınsan” - dedi. O belə danışanda hirsləndim, söylədim ki, niyə belə deyirsən? Nə baş verir? Sonra söhbəti dəyişib zarafata keçdi. Və getdi...

Aprelin 18-i səhər o başdan səsə oyandım. Eyvandan səs gəlirdi. Elə bildim ki, namazın vaxtın ötürmüşəm. Baxdım ki, bir göyərçin qonub eyvanın məhəccərinə. Elə hey döyəcləyir dəmir məhəccəri. Sanki deyirdi ki, aç pəncərəni girim içəri. Axşamdan xeyli keçmiş, zəng vurub dedilər ki, Sənan yaralıdır. Vertolyotla Mərkəzi Hospitala gətirəcəklər. Uşaqları da yığıb qohum-əqraba ilə yola düşdük. Və gedib Beyləqandakı Peyğəmbər Pirinə çatdıq. Orada bildim ki, Sənan şəhid olub...

Sonrasından xəbərim olmadı. Mən tamam özümə gələndə anladım ki, onu Beyləqanda çox sevdiyi babasının yanında dəfn ediblər. Özümdə olsaydım, nə baş verdiyini anlasaydım, qoymazdım orada dəfn olunsun. Hər vaxt yanına gedə bilmirik. Sənan üçün darıxanda buradakı Şəhidlər Xiyabanına gedirik. Neyləyək? Başqa əlacımız yoxdur. O şəhidlər də Sənan qədər bizə əziz və doğmadır.

Sonradan bildim ki, Sənan təzə təyin olunduğu Lələtəpədə kəşfiyyat işləri aparmaq, növbəti döyüş tapşırığını yerinə yetirmək üçün qarşı önə gedib. Ərazidə öz işlərini görüb geri qayıdırmış. Birdən mina partlayışının səsi gəlir. Sənan bir an da düşünmədən geri dönür. Çünki bilirdi ki, arxada polkovnik-leytenant olan hərbçi yoldaşı var. Bilib ki, partlayışa düşən hərbçi yoldaşı polkovnik-leytenant Vüqar Əbdüləzimovdur. Ağır yaralanmış döyüş yoldaşına yardım edir. Belindəki dəri kəməri açıb onun yarasına bağlayır ki, qanaxmanı kəssin. Və yaralı dostunun həyatını təhlükədən xilas edir. Onu xilas edib, özü geri qayıtmaq istəyəndə minaya düşür. Sənan hərbçi yoldaşını darda qoymur. Bu əhvalat səhər o başdan baş verir. Mənim eyvanıma göyərçin qonan vaxt. Sən demə göyərçin mənə deyirmiş ki, Sənan üçün dua edim ki, Tanrı onu qorusun. Onsuz da hər zaman onun üçün dua edirdim. Nə bilim? Nə idi günahımız? Bax beləcə, öz dostunun həyatını xilas edir. Əslində Sənan medallarını qırmızı parçaya düzəndə, mənimlə son dəfə vidalaşıb çıxanda haraya getdiyini yaxşı bilirmiş...

Sonra onu Əhmədbəyli kəndindəki hərbi hissənin kiçik hospitalına çatdırıblar. Bilmirəm orada nələr olub, nə baş verib. Bizə heç nə danışmadılar. Heç nədən xəbərim olmadı. Harasından yaralanmışıdı? Son sözü, son istəyi nə oldu? Demədilər bizə...

İndi Sənanı unutmurlar. Adına turnirlər keçirilir, oxuduğu 144 nömrəli tam orta məktəb, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəb, özümün direktor olduğum Nərimanov rayonu 45 nömrəli tam orta məktəb, Tahirin təhsil aldığı İlyas Əfəndiyev adına Elitar Gimnaziya, Nəzrinin təhsil aldığı Bakı Avropa Liseyində Sənanın xatirəsini uca tuturlar.

Sənan evdən çıxanda demişdi ki, hər şənbə günü gələcək evə. Sənan bu dəfə sözünü tutmadı....

Niyə uzaq saldın yolunu bizdən,
Elə bil inciyib, küsüb getmisən.
Qəfil gedişinlə, ayrılığınla,
Dünyama bir ağır dərd gətirmisən.

Getdiyin yollardan dönəsən deyə,
Getdiyin yollara su çiləyərdim.
Qapıdan çıxandan dönənə kimi,
Səni həsrət ilə mən gözləyərdim.

“Dönərəm”- demişdin, sonuncu dəfə,
Dönmədin, gözlərim yollarda qaldı.
Sözünü tutmadın, tutmadın Sənan,
Səni Tanrı alıb hara apardı?! (Aida Eyvazlı Göytürk.)

Bu şeiri şəhid polkovnik-leytenant Sənan Axundovun həyat hekayətini yazarkən qələmə aldım. Bu şeir Göy Tanrının yanında ən uca məqamda oturan o gözəl, mavi gözlü, işıq selində yanan Sənana bir Tanrı payı idi.

Nəcibə xanım deyir ki, Sənan “Küçələrə su səpmişəm” mahnısını çox sevərdi. Sənanın həyat hekayətini yazmağa başlayandan səhərə kimi göylərdən yerə nur damcıları yağırdı. Nədənsə mənə elə gəldi ki, bu yağışı Sənan istəyib Göy Tanrısından. Axı Tanrı Şəhidləri öz yanında ən uca mərtəbədə saxlayır. Yəqin ki, bu yağan yağış da Sənaın çatmadığı arzularını göyərdəcək.

***Aida Eyvazlı***